# Xalq yenilməzliyini bir daha sübut etdi

Dünən Nərimanov Rayon İcra Hakimiyyətində 20 Yanvar faciəsinin 26-cı ildönümü qeyd edilib. Əvvəl Azərbaycanın müstəqilliyi və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Daha sonra çıxış edən Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev 1990-cı ilin yanvarında sovet imperiyasının qoşun birləşmələrinin Azərbaycanda müstəqillik və azadlıq uğrunda mübarizəyə qalxmış dinc əhaliyə, soydaşlarımıza qarşı törətdiyi cinayətlərdən danışaraq 20 Yanvar faciəsinin xalqımızın milli azadlıq ruhuna qarşı təcavüz, eyni zamanda, yaddaşına silinməz faciə kimi yazılmış bu qanlı hadisənin tariximizin qəhrəmanlıq səhifəsi olduğunu qeyd edib. Həmin gecə Azərbaycan xalqının özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, müstəqillik və azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdiyini deyib.

A.Fərzəliyev ulu öndər Heydər Əliyevin 20 Yanvar hadisəsinə hüquqi-siyasi qiymət verilməsində əvəzsiz rolunu xüsusilə vurğulayaraq bildirib ki, ümummilli lider 20 Yanvar faciəsi şəhidlərinin ailələrini, əlil olmuş vətəndaşlarımızı hər zaman diqqət mərkəzində saxlayıb. Ulu öndərin siyasətini bu gün layiqincə davam etdirən möhtərəm Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyi uğrunda həlak olmuş şəhidlərimizin ailələrinə və sağlamlığını itirmiş şəxslərə verilən təqaüd və müavinətləri daim artırır.

Şəhid ailələri və əlillər adından çıxış edən 20 Yanvar Şəhid Ailələri Fondunun Nərimanov rayon şöbəsinin sədri Müxəstə Həsənova bu dəhşətli qətliamı törədən keçmiş imperiya rəhbərlərinin məkrli niyyətlərindən danışıb, şəhid ailələrinə və əlillərə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirib, xalqımızın heç zaman bu hərbi cinayəti unutmayacağına, onu törədənləri bağışlamayacağına və Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsini daim qəlbində uca tutacağına əminlik ifadə edib.

Sonra rayonun orta məktəb şagirdlərinin ifasında Qanlı Yanvar faciəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya və video materialları nümayiş olunub.

Faciə zamanı şəhid olanların ailələrinə və əlillərə rayon icra hakimiyyəti tərəfindən diqqət və qayğı göstərilib.

***"Azərbaycan"***